# Kitabxanada tədbir



Bu günlərdə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Binəqədi rayon 182 saylı tam orta məktəbin fizika-riyaziyyat müəllimi, təcrübəli pedaqoq Nəbibə Səfərovanın "Ömrümün əvəzsiz vəfadarı" kitabının təqdimat mərasimi keçirilmişdir. Kitabxananın direktoru Tahir Sadıqov burada keçirilən çoxsaylı tədbirlərin əhəmiyyətindən danışmış və müasir elektron kitabxananın yenilikləri ilə qonaqları tanış etmişdir.

"Ömrümün əvəzsiz vəfadarı" kitabının ön söz müəllifi və məsləhətçisi, ilahiyyatçı alim, akademik Vasim Məmmədəliyev qeyd etmişdir ki, Nəbibə müəllimənin şeirlərini oxuyanda, hətta onunla şəxsi tanışlığı olmayan hər kəs onun bir ana, bir nənə, bir müəllimə, bir vətənpərvər, bir insan kimi necə yüksək keyfiyyətlərə malik olduğunu görər.

Vasim müəllim nəfis tərtibatda, yüksək səviyyədə "Min bir mahnı" nəşriyyatında çap olunmuş kitabın redaktoruna və müəllifə təşəkkürünü bildirmiş, onlara yeni-yeni uğurlar arzulamışdır. Azərbaycan Televiziyası və Radiosu MMC-nin sədr müavini Cavanşir Cahangirov (Muradxan oğlu) kitabda ana dilimizin qorunması ilə bağlı bəzi televiziya aparıcılarının, jurnalistlərin nöqsanlarından danışmış və müəllifin iradlarını müsbət qiymətləndirmişdir.

182 saylı tam orta məktəbin şagirdləri Nəbibə Səfərovanın şeir və qəzəllərini, aforizmlərini xüsusi məharətlə söyləmişlər.

Tədbirdə "Arximen" şirkətinin memarı Tağı Hacızadə, qəzəlxan, ilahiyyatçı Hacı Səyyar, Nəbibə müəllimənin unudulmaz fizika müəllimi olmuş İsfəndiyar Qurbanovun oğlu Namiq Qurbanov, 182 saylı tam orta məktəbin dərs hissə müdiri Bəsti Vəliyeva, biologiya müəllimi Sevinc Əliyeva, Milli Məclisin əməkdaşı Sevinc Rəhimova, "Respublika" qəzetinin əməkdaşı Sahilə Əliyeva və başqaları vurğulamışlar ki, Nəbibə Səfərovanın babası Dadaş Yusif tanınmış qəzəlxan, bir çox şeir və mərsiyələr müəllifi olmuşdur. Nəbibə Səfərovanın şeir təbi ona məhz babasından irsən keçmişdir.

Sonda Nəbibə Səfərova tədbir iştirakçılarına təşəkkürünü bildirmiş və yeni yazdığı şeirlərini söyləmişdir.

**Rauf İLYASOĞLU,**
**"Respublika".**